MƏDƏNİYYƏTİMİZİ DÜNYAYA TANIDAN AZADLIQ MÜCAHİDİ



Bu il görkəmli yazıçı, publisist, tərcüməçi, tarixçi, tədqiqatçı, naşir, ictimai xadim, Azərbaycanın azadlıq mücahidi Ceyhun bəy Hacıbəylinin anadan olmasının 125 illiyi tamam olur. Yubiley münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 19 noyabr 2015-ci il tarixli xüsusi sərəncamda deyilir: "Milli ədəbi-ictimai fikir tarixinə töhfələr verən Ceyhun Hacıbəyli Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir".

Dünya şöhrətli bəstəkar, xalqımızın azman dühası Üzeyir bəy Hacıbəylinin kiçik qardaşı Ceyhun bəy Hacıbəylinin 125 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi bir daha onu göstərir ki, vətən, xalq, millət uğrunda mübarizə aparanlar, canlarından keçənlər heç vaxt unudulmurlar. Ceyhun bəyin vəfatı ilə bağlı yaxın dostlarından biri doktor Əziz Alpaut "Mücahid" adlı aylıq ictimai fikir məcmuəsinin 1963-cü il tarixli yanvar–fevral sayında "Bir böyük itkimiz daha" sərlövhəli vida məqaləsinin sonunda belə yazırdı: "...Nur içində yatasan, sevgili ağabəyimiz (böyük qardaşımız – S.Q.). Vətən səni unutmayacaq, bir gün bağrına basacaqdır".

Bəli, həmin gün gəldi. Müstəqilliyimiz əldə olunduqdan sonra mühacirətdə yaşayan, ölkəmizi dünyada layiqincə təmsil edən, onun uğrunda çətinliklərə sinə gərən Ceyhun bəy–Azərbaycan adlı doğma məmləkətə dönərək onun ağuşunda rahatlıq tapdı.

Ceyhun Hacıbəylinin adı çəkiləndə mütləq böyük vətəndaş, gözəl ziyalı Ramiz Abutalıbov yada düşür. Çünki o, Ceyhun bəyi yenidən Azərbaycana qaytardı. Ramiz müəllim C.Hacıbəylinin zəngin irsini, dəyərli arxivini təmənnasız olaraq Fransadan ölkəmizə gətirərək Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə və Üzeyir Hacıbəylinin ev-muzeyinə bağışladı. Məhz bu arxiv sayəsində Ceyhun bəylə bağlı çox mətləblərə aydınlıq gətirildi. Xalqımız onun həyat və yaradıcılığı ilə yaxından tanış oldu.

Böyük ziyalımız Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci il fevralın 3-də Azərbaycanın tacı, qədim, gözəl Şuşa şəhərində dünyaya gəlmişdir. Onun uşaqlığı doğma Şuşada keçmiş, ilk təhsilini də orada ikiillik rus-türk məktəbində almış, sonra Bakıda orta məktəbi bitirmişdir.

O, dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəylinin 12 (25) yanvar 1908-ci ildə premyerası keçirilmiş, bütün Şərqin ilk operası olan "Leyli və Məcnun" adlı səhnə əsərinin ərsəyə gəlməsində yaxından iştirak edib. Belə ki, librettonun hazırlanmasında, muğamların seçilməsində qardaşı Üzeyir bəyə yardım göstərib, həmçinin operada İbn Səlam və Nofəl rollarını məharətlə oynayaraq tamaşaçıların rəğbətini qazanıb, ifasına yüksək qiymət verilib.

Bu barədə 1908-ci ilin 14 yanvar tarixli "Tazə həyat" qəzeti belə yazırdı: "...İbn Səlamlıqda öz rolunu nə qədər gözəl və mahir ifa etdiyi kimi, Nofəl rolunu da, demək olar ki, layiqincə oynayıb, layiqincə oxuyurdu".

1909-cu ildə ali təhsil almaq məqsədilə Ceyhun bəy Hacıbəyli Sankt-Peterburq Universitetinin hüquq fakültəsinə qəbul olur. Milyonçu Murtuza Muxtarovun ayırdığı vəsait hesabına sonra o, Parisə gedib məşhur Sorbonna Universitetində təhsilini davam etdirir. Parisdə oxuduğu illərdə bir-birindən maraqlı yazılar yazaraq Bakıda çıxan "Kaspi", "Baku" (1910–1915) qəzetlərinə göndərir. Eyni zamanda Ceyhun bəy Fransanın paytaxtında nəşr olunan mətbuat orqanlarında da məqalələr dərc etdirib. O öz yazıları vasitəsilə Avropa xalqlarına və rusdilli oxuculara Azərbaycan ədəbiyyatını, dilini, mətbuatını və incəsənətini tanıtmışdır. Yazıçılıq və tərcüməçilik məharəti olan Ceyhun bəy "Hacı Kərim " adlı povest yazmış, rus yazıçısı İ.Turgenevin "Pulsuzluq" komediyasını dilimizə tərcümə edərək ilk dəfə Azərbaycan oxucularının ixtiyarına vermişdir.

Ceyhun bəy Hacıbəyli 1916-cı ildə gözəl mütəxəssis kimi vətənə qayıtdı. Bakıda yaşadığı dövrdə də müharrirlik fəaliyyəti ilə məşğul oldu, "Proqress", "İrşad", "Tərəqqi" və s. qəzetlərdə müntəzəm olaraq oxunaqlı yazılarla çıxış etdi. "İttihad" qəzetinin baş redaktoru oldu.

"1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında C.Hacıbəylinin də böyük rolu vardı. AXC–nin orqanı olan "Azərbaycan" qəzetinin baş redaktorluğu ona tapşırılmışdı. Bu məsuliyyətli vəzifəni daşıyan Ceyhun bəy 1919-cu ilin yanvar ayında Versal sülh konfransına gedən nümayəndə heyətinin tərkibinə daxil olunur və bir vaxtlar təhsil aldığı Paris şəhərinə yola düşür. Parisdə müxtəlif tədbirlərdə, konfransın işində yaxından iştirak edən nümayəndə heyətinin əsas vəzifəsi gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyini böyük Avropa dövlətlərinə tanıtmaq idi. Təəssüf ki, o vaxt orada dövlətimiz naminə səmərəli işlər aparan nümayəndə heyətinin fəaliyyəti yarımçıq qaldı. 28 aprel 1920-ci ildə Azərbaycanın XI qırmızı ordu tərəfindən işğal edildiyi xəbərini ürək ağrısı ilə qarşıladılar. Xalqımızın başına gələn faciədən hali olan nümayəndə heyətinin bütün üzvləri, o cümlədən də Ceyhun bəy bir daha vətənə qayıda bilmədi. Ömrünün sonuna qədər qürbət ölkədə qalmağa məcbur oldu...



Ceyhun Hacıbəyli qardaşı Üzeyirlə

Ceyhun bəy Hacıbəyli Parisdə yaradıcılıqla, eləcə də ictimai işlərlə məşğul olub. Doğma Azərbaycanı orada layiqincə təmsil və tərənnüm edib. Parisdə "Fiqaro", "Jurnal Aziatik", "Revue de monde musulman" adlı qəzet və jurnallarda mütəmadi məqalələr yazıb, hətta bir ara fransız dilində çıxan "Qafqaz" dərgisinin, Münhen şəhərində Azərbaycan Milli Birliyinin orqanı olan "Azərbaycan" məcmuəsinin redaktoru vəzifəsini daşıyıb.

1925-ci ildə Ceyhun bəy qardaşı Üzeyir bəyin dünya şöhrətli "Arşın mal alan" operettasının librettosunu fransız dilinə tərcümə edib, 1928-ci ildə isə Parisdə "Femino" teatrında əsəri tamaşaya qoyub. Hər yerdə olduğu kimi, Fransa paytaxtında da operetta çox böyük uğur qazanıb. "Arşın mal alan"ı tərcümə etmək və Fransada səhnələşdirmək arzusunu Üzeyir bəyə yazan Ceyhun bəy 24 fevral 1920-ci il tarixində böyük qardaşından məktub alır. "Nuri-didə Ceyhun" ("Gözümün nuru Ceyhun". Ü.Hacıbəyli qardaşına yazdığı məktubları həmişə belə başlayardı – S.Q.) başlıqlı məktubunun bir yerində böyük bəstəkar yazırdı: "Arşın mal alan"ın notlarını Camala (bacısı Sayad xanımın oğlu – S.Q.) verdim ki, sənə göndərsin. Hərgah ondan da bir şey çıxarsa, daha yaxşı!". 1924-cü il aprelin 9-da yazdığı digər məktubunda isə dahi bəstəkar vurğulayırdı: "Mən zənn edirəm ki, "Arşın mal alan" Parisdə müvəffəqiyyət qazanarsa, hər bir məmləkətdə dəxi oynanılar. O halda sən müsənnif haqqını dəxi ala bilərsən". Bəli, Üzeyir bəyi narahat edən əsas məsələlərdən biri də qardaşının güzəranının yaxşılaşdırılması idi. Bunun üçün ona hər cür kömək əlini uzadırdı.

C.Hacıbəyli mühacirətdə yaşadığı dövrdə müxtəlif tədqiqat əsərləri də nəşr etdirib; məsələn, 1930-cu ildə "Azərbaycan mətbuatı tarixi", 1933-cü ildə "Qarabağ dialekti və folkloru" kitabları fransız dilində işıq üzü görüb. Ceyhun bəyin sonuncu tədqiqat əsəri isə "İslam əleyhinə propaqanda və onun Azərbaycandakı metodları" adlı

Ceyhun Hacıbəyli Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Paris konfransı zamanı

əsəri olub. Kitab 1959-cu ildə Sovetlər Birliyini Öyrənmə İnstitutu tərəfindən nəşr edilib. Bundan əlavə, "Mənim xəyallarım" əsərini də qələmə alıb.

Ceyhun bəy həm də 1953-cü ildə "Azadlıq" radiosunu yaradanlardan biridir. Ömrünün son illərində isə keçmiş SSRİ-ni öyrənən institutun müxbir üzvü kimi fəaliyyət göstərib. Keçmiş SSRİ-nin rəhbəri İosif Stalin də Ceyhun bəylə maraqlanmış, hətta onunla bağlı Üzeyir bəylə bir dialoqu da olmuşdur. Bu hadisə 1938-ci ilin aprel ayında Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünün sonuncu günü Kremldə Ü.Hacıbəyli başda olmaqla respublikamızın incəsənət nümayəndələrinin şərəfinə təşkil edilmiş ziyafət zamanı baş verib.

Stalin Üzeyir bəyə deyir:

–Üzeyir bəy, bildiyimə görə, sizin kiçik qardaşınız Fransada yaşayır. Onunla məktublaşırsınızmı?

Üzeyir bəy: – Bəli, əvvəllər məktublaşırdıq, yoldaş Stalin, son zamanlar yazışmırıq.

Stalin: – Niyə? Sizə mane olanmı var?

Üzeyir bəy: – Xeyr!

Stalin: – Nahaq yerə yazışmırsınız! Siz ona məktub göndərin. Bəlkə, vətənə dönmək istəyir? Vətənə qayıtsa, onu işlə, evlə təmin edərik. Mütləq bunları qardaşınıza yazın!

Üzeyir bəy Bakıya gələn kimi Stalinlə olan söhbətini məktub vasitəsilə qardaşına bildirsə də, ondan heç bir cavab almır.

Ceyhun Hacıbəylinin Bakıya gətirilən arxivindəki saralmış bir qəzet parçasına kövrəlmədən baxmaq qeyri-mümkündür. Bu, anası Şirinbəyim əliverdibəyova–Hacıbəylinin vəfat etdiyini bildirən elan və Üzeyir bəyə verilmiş başsağlıqlarıdır. Onun bir kənarında əski əlifbə ilə yazılmışdır: "Kommunist", 6 may 1939-cu il". İlk baxışda kiçik görünən qəzet parçası vətənə, ailəsinə, doğmalarına həsrət qalan Ceyhun bəy üçün böyük və ağır itkinin xəbərçisi idi. O, buradan sevimli nənəsinin (onlar analarına nənə deyə xitab edirdilər – S.Q.) ölüm xəbərini almışdı. Uzun illər qovuşmaq istədiyi anasının vəfat etdiyini öyrənən həssas qəlbli bir insanın qürbət ölkədə nələr çəkdiyini, nə hala düşdüyünü təsəvvür etmək çətin deyildir. Ceyhun bəy qara xəbəri verən bu qəzet parçasını arxivində ana həsrəti ilə qovrularaq saxlayırdı. Taleyin hökmünə bax ki, qəzet parçası illər sonra Ceyhun bəy Hacıbəylinin Fransadakı arxivindən yenidən doğma məmləkətə dönərək vətəndə özünə əbədi ünvan tapdı.

Üzeyir bəy qardaşına yazdığı hər məktubda mütləq anaları haqqında onu məlumatlandırardı. Şirinbəyim xanımın səhhətindən, məşğuliyyətindən, oğlundan və onun ailəsindən nigarançılığından, doğmaları üçün çox darıxdığından, tezliklə görüşmək arzusundan, şəkillərdə nəvələrini öpməyindən və s. -dən bəhs edərdi. Lakin bütün bunlar əlçatmaz arzu olaraq qaldı, heç biri həyata keçmədi. Ceyhun bəy Hacıbəyli qələmə aldığı memuarlarında belə yazırdı: "...Sən indi onlardan (doğmaları nəzərdə tutulur – S.Q.) ayrıldığın qırx birinci ilin içindəsən... Sən onları bu müddət ərzində görməmisən və heç vaxt, qətiyyən görməyəcəksən – kişilər və qadınlar – onlar bir-birinin ardınca gedirlər. Və sənin özün də..."

Bəli, Ceyhun bəyin özünün də həyatının qürub çağı yavaş-yavaş yaxınlaşırdı. O, yaxın dostu, Azərbaycan Xalq Cümhuriyyətinin əski daxili işlər naziri Mustafa Vəkil oğluna 19 oktyabr 1962-ci il tarixli məktubunda yazırdı: "Pək möhtərəm qardaşım Mustafa bəy! Çox böyük təəssüflə elan etməliyəm ki, sizləri ziyarət etmək mənə mümkün olmayacaq. Qəlb xəstəliyinə mübtəla oldum, hətta ayaq üstə qalmaq mənə yasaqdır. Çox gözlədim, bir yaxşılıq hasil olmadı. Müalicə edirlər, lakin qəlb xəstə olduğundan təkrar nə yapa bilərlər? Krizlər olur, çox fəna hala düşürəm. Bunu da söyləməliyəm ki, ilk əlamət temmuzun (iyul – S.Q.) 8-də Paris Bloku iclasında baş verdi. İndi hərdənbir həmin qəlb sıxıntısı təkrarlanır. Çox-çox təəssüf! Hər halda, siz görüşmələrinizi keçirin və mühacirətin bir yerə toplanmasına səy edin, bu mühümdür. Əllərinizi sıxaraq hamınıza dərin sevgilərimi izhar edirəm. Ceyhun".



Üzeyir bəy Hacıbəylinin Moskvadan qardaşı Ceyhun bəyə yazdığı məktub.

Məktubu yazdıqdan üç gün sonra böyük vətəndaş, həyatını Azərbaycanın azadlığı uğrunda mübarizələrdə keçirən C.Hacıbəyli 22 oktyabr 1962-ci ildə 71 yaşında infarktdan Parisdə vəfat etdi. Məktub Ankarada çıxan "Mücahid" məcmuasinin 1963-cü il tarixli yanvar–fevral sayının 6-cı səhifəsində dərc olundu. Ceyhun bəyin bu məktubunu həyəcansız oxumaq mümkün deyil. Düşündükdə ki məktubu yazdıqdan üç gün sonra böyük şəxsiyyət haqqa qovuşub, bu hisslər bir az da dərinləşir. Göz yaşları adamı boğur. Doğma yurduna, xalqına, yaxınlarına həsrət qalan, lakin son günlərində də mühacir həyatı yaşayan həmvətənlərinə birlik nəsihəti edən bir vətən övladının vida məktubunu oxumaq nə qədər nisgilli, nə qədər çətindir... O, ömrünün sonuna kimi Azərbaycanın azadlığı uğrunda var qüvvəsi ilə çalışdı. Sovetlər Birliyini Öyrənmə İnstitutunun Almaniyada işıq üzü görən "Dərgi" məcmuəsinin 1962-ci ildə çıxan 30-cu sayında Ceyhun bəy Hacıbəylinin vəfatı ilə əlaqədar nekroloq və fotoşəkli dərc olunub. Nekroloqun son abzasında yazılırdı: "Ceyhun bəy vətənini sevən, olaylara qarşı həssas bir insan idi. Hamıya yaxşılıq etməkdən və Azəri topluluqlarında olmaqdan böyük zövq duyardı. Allah qəniqəni rəhmət eləsin. Nur içində yatsın. Amin!".

Böyük demokrat, yenilməz mübariz, böyük ədib Ceyhun bəy Hacıbəylinin azad, müstəqil Azərbaycan uğrunda apardığı savaş öz bəhrəsini verdi. Azərbaycanımız 25 ildir ki, yenidən müstəqildir, bağımsızdır. Bu müstəqilliyin əldə olunmasında, şübhəsiz ki, Ceyhun bəy kimi böyük şəxsiyyətin də xüsusi rolu vardır. Onun Avropada tariximiz, ədəbiyyatımız, mədəniyyətimiz üçün etdikləri, gördüyü işlər, apardığı təbliğat müstəqilliyimizin bərqərar olmasında öz səmərəsini göstərmişdir. Vətən heç vaxt belə oğullarını unutmayacaq! Azərbaycan var olduqca Ceyhun bəy də mədəniyyət tariximizdə yaşayacaq, ürəklərdə, qəlblərdə özünə yuva quracaqdır! ❖

Səadət Qarabağlı

Zülfüqar bəy, Üzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşları